# DÖVLƏTİMİZİN İNFORMASİYA STRATEGİYASININ SƏHİFƏLƏRİ




## *13 aprel 2021-ci il tarixdə dövlət başçımızın iştirakı ilə ADA Universitetində Azərbaycan reallıqlarının dünya ictimaiyyətinə çatdırılması məqsədilə mühüm tədbir keçirilib*

Ötən il aprel ayının 13-də ADA Universitetində "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfrans keçirilmişdir. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev həmin konfransda iştirak etmişdir.

Konfrans ADA Universiteti tərəfindən ən yüksək səviyyədə təşkil edilmişdir. İlk növbədə, dövlət başçımız həmin konfrans vasitəsilə bütün dünyaya iki mühüm mesaj çatdırmışdır. Bunlardan birincisi ondan ibarətdir ki, artıq müharibə Azərbaycanın tarixi Zəfəri ilə başa çatdı, münaqişə bitdi. Yeni artıq nə "Dağlıq Qarabağ" adlandırıla biləcək ərazi, nə də eyniadlı problem mövcud deyil. İkincisi isə Azərbaycan yeni postmüharibə mərhələsini intibah, inkişaf və əməkdaşlıq mərhələsi kimi dəyərləndirir və bu işdə dövlətimiz və xalqımızla bir yerdə olmaq, bu mühüm fəaliyyətə öz töhfəsini vermək istəyində olan hər bir ölkə üçün Azərbaycan açıqdır.

Lakin şübhəsiz, qeyd etdiklərimiz konfransda ifadə olunmuş çoxsaylı və mühüm fikirlərdən yalnız ikisi idi. Cənab İlham Əliyev dünyanın ən müxtəlif beyin mərkəzləri təmsilçilərinin suallarını cavablandırarkən keçmiş münaqişənin tarixindən, onun həlli ilə bağlı aparılan uzunmüddətli və səmərəsiz danışıqlardan başlamış, erməni vandalizminin ifşasına, rəşadətli Ordumuzun qəhrəmanlığına qədər, dost ölkələrin beynəlxalq hüququn və ədalətin yanında olunmasından başlamış Ermənistanın təcavüzkarlıq siyasətini və faşist əməllərini dəstəkləyənlərə qədər olduqca geniş məsələlər spektrinə toxundu və bunu beynəlxalq ictimaiyyətin və qlobal informasiya məkanının diqqətinə təqdim etdi.

Cənab Prezident həmçinin xalqımızın tarixi keçmişi, ermənilərin qədim Azərbaycan torpaqlarında özlərinə necə dövlətə sahiblənməsi ilə bağlı obyektiv tarixi faktlara əsaslanan məlumatları bildirmiş, tarixi mənbələrə istinad edərək əsl gerçəklərin və reallıqların nədən ibarət olduğunu tutarlı arqumentlərlə iştirakçıların nəzərinə çatdırdı.

Beləliklə, hər kəsə aydın oldu ki, Cənubi Qafqaz kimi kifayət qədər mürəkkəb bir regionda erməni milliətçiliyi və ideoloqların söykəndiyi güclər tərəfindən yaradılmış ən mürəkkəb münaqişə ocaqlarından birini Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin siyasi müdrikliyi, sərkərdə məharəti, rəşadətli, güclü ordusu sayəsində həll edə bilib. Bu tarixi Zəfər Azərbaycana qalib ölkə statusu qazandırıb.

ADA Universitetində təşkil olunmuş bu tədbirdən keçən bir il ərzində görünən odur ki, dünya birliyi bu yeni reallığı günü-gündən daha düzgün qəbul edir, Azərbaycanın əməkdaşlıq və tərəfdaşlıqla bağlı təşəbbüslərini tarixi fürsət kimi dəyərləndirməyə çalışır. Lakin hər şeydən əvvəl, Ermənistan öz mövcudluğu üçün bu tarixi fürsəti əldən verməməyin əhəmiyyətini dərk edib. Təsadüfi deyil ki, aprelin 6-sı Azərbaycan Prezidenti cənab İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyanla keçirilmiş görüşün nəticəsi olaraq, Şarl Mişel tərəfindən verilmiş bəyanatda təsbit edilib ki, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi üzrə danışıqlar başlamalıdır. İki ölkənin Xarici İşlər Nazirliyinə bununla bağlı tövsiyələr verilir. Həmin tövsiyələrin əsas mahiyyəti isə məhz Azərbaycanın irəli sürdüyü 5 maddədən ibarət təklifin qəbulu və bunun əsasında danışıqların aparılmasıdır. Bu sənəddə mühüm məqam Azərbaycanın ərazi bütövlüyü məsələsidir.

Həm Avropa, həm də Ermənistanda yaxşı başa düşürlər ki, Azərbaycan bütövlükdə Cənubi Qafqazın tarixində geri dönülməsi mümkün olmayan əhəmiyyətli strateji reallıq yaradıb və hamı bununla artıq hesablaşır.

Konfransda dövlət başçısı İlham Əliyev xüsusilə qeyd etmişdir ki, postkonflikt dövrünü nəzərdən keçirməzdən öncə, başa düşmək lazımdır ki, Azərbaycan torpaqları 30 il işğal altında qalmışdır. Prezident vurğulamışdı ki, xalqımız Ermənistanın həyata keçirdiyi Xocalı soyqırımını unuda bilməz: "Bunu anlamaq vacibdir ki, bu xatirələr bizimlədir və ürəyimizi ağrıdır".

Hərbi əməliyyatlardan sonrakı vəziyyətə toxunan cənab İlham Əliyev demişdir: "Müharibədən sonrakı dövr də çox həssasdır. Düzdür, atəşkəs rejimi qorunur, lakin hələ də postmüharibə dövründəki inkişafla bağlı çoxlu suallar var. Bu konfransın da mövzusu postkonflikt dövründə inkişaf və əməkdaşlıqla bağlıdır".

Dövlət başçısı konfrans iştirakçılarının diqqətini azad edilmiş ərazilərdə erməni vandalları tərəfindən törədilmiş ürəkağrıdan dağıntıların olmasına xüsusilə çəkmişdir.

"Azad etdiyimiz ərazilərdəki dağıntılar bizim gözlədiyimizdən də artıq idi", - deyən cənab Prezident xarici ölkə nümayəndələrinə müraciət etmişdir. Dövlət başçısı bildirmişdir ki, ermənilərin bizim şəhər və kəndlərimizə nələr etdiklərindən az-çox xəbərimiz vardı: "Zaman-zaman videolarda görürdük, həmin ərazilərə gedən beynəlxalq nümayəndələrin verdiyi məlumatları eşidirdik. Lakin azad etdiyimiz ərazilərdəki dağıntıların bizim gözlədiyimizdən də artıq olduğunu gördük".

Lakin cənab Prezident müxtəlif dünya ölkələrini təmsil edən nüfuzlu ekspertləri və beyin mərkəzləri nümayəndələri ilə görüş zamanı təkcə Qarabağla bağlı gerçək həqiqətləri dilə gətirməklə kifayətlənmədi, həm də Ermənistan adlanan ərazi vahidinin əslində qondarma bir dövlət olduğunu, tarixən məhz qədim Azərbaycan torpaqlarında yaradıldığını bir daha bəyan etmişdi.

Konfransın gedişatında həm də aydın oldu ki, artıq əvvəllər olduğu kimi, beynəlxalq ictimaiyyət həm çağdaş dövrümüzlə bağlı, həm də keçmişlə əlaqədar reallıqdan çox da uzaq deyil və həqiqətlərə az-çox bələddir. Məsələn, Amerika Birləşmiş Ştatlarının Prinston Universitetinin dosenti Maykl Reynoldzun cənab İlham Əliyevə verdiyi sualda Ermənistanın təkcə Azərbaycana deyil, həmçinin Türkiyə Cümhuriyyətinin şərq hissəsinə də torpaq iddiaları irəli sürməsini "xülya və məsuliyyətsiz, olduqca təxribatçı davranış", habelə "ağılsızlıq" kimi dəyərləndirmişdir. Belə düzgün yanaşmanın sərgilənməsi diqqət çəkməyə bilməz. Reynoldz həm də onu təsdiq etmiş oldu ki, İrəvan və hazırkı Ermənistanın digər bölgələrinin tarixi Azərbaycan torpaqları adlandırılması məhz gerçəklərə və faktlara söykənir. Əlbəttə, amerikalı ekspertin belə ədalətli və həqiqəti əks etdirən bir mövqenin ortaya qoyulmasında həm son illər ərzində, həm də 44 günlük müharibə zamanı cənab İlham Əliyevin dəfələrlə dünyanın ən mötəbər tribunalardan etdiyi çıxışların, apardığı diskussiyaların, eləcə də ən nüfuzlu media nümayəndələrinə verdiyi çoxsaylı müsahibələrin rolu əvəzsizdir.

Əlbəttə, ADA Universitetində təşkil olunmuş tədbir kimi konfransların keçirilməsi ölkəmiz üçün çox əhəmiyyətlidir. Azərbaycanın haqq səsinin dünyaya çatdırılması istiqamətində bu cür konfransların ölkə daxilində və xaricdə keçirilməsi, beynəlxalq birliyə öz qəti mövqeyimizi daim bildirməyimiz çox əhəmiyyətlidir. Bir il öncə ADA-nın keçirdiyi bu tədbirin həm də əhəmiyyəti ondan ibarətdir ki, müxtəlif dövlətlərin beyin mərkəzinin rəhbərləri, siyasi ekspertlər Bakıya dəvət olunmuşdu. Ağdama səfər də baş tutmuşdu. Prezident cənab İlham Əliyevlə görüşləri olmuşdu və dövlət başçısı onların suallarına hərtərəfli və müfəssəl cavablar vermişdi.

**Emin QASIMOV,**
**"Respublika".**